SEÇMƏ TƏRCÜMƏLƏR

Məhsəti Gəncəvi

RÜBAİLƏR

Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.
Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən özün olasan möhtac.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhləninde hazırdır yəhər.

Qızıl dedi: "Mənəm hər günə gərək,
Duz kimi möhtacdır mənə hər xörək.
Məni ölü kimi basdırmayın siz,
Həyat üçün mənəm ən yaxın kömək".

Boy-buxunu, çiyni nöqsanlıdan dad,
Namərd kişilərdən yaxşıdır arvad.
Bivəfa dostlardan düşmən yaxşıdır,
Etibarsız dostu yadından çıxart.

Nədən səni belə yandırdılar, şam,
Yaddan çıxartdılar burda bir axşam?
Sən özün dilə gəl, neyləsin, əgər
Yaranmışsa ancaq yanmaqçün adam?!

Qəminin eşqilə cahana gəldim,
Canımı eşqinə qurbana gəldim.

Bu könlüm qəminin məkanıdır, yar,
Qəmini çəkdikcə mən cana gəldim.

Xərabatdan çıxan bir ay ucaldı,
Fələyin damında bir çadır saldı.
Qəflətən ucaldı Hatifdən bir səs:
"Bu dünya bir saman çöpünə dəyməz?!"

Arvadla kişini bağlayar kəbin,
Bu işə yol verir şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən, bir din?

O dərya təbinlə bəhsə girərək,
İstəsən lovğalıq etməsin fələk;
Lütfi-kərəm qılıb buyur saqiyə,
Sənin piyaləni doldursun tək-tək.

Əlimdə qədəhlə sənin küçəndən
Hər gecə, sevgilim, sərxoş keçdim mən.
Eşqi şərab kimi tökdüm qədəhə,
Huşa getdim, düşüb sındı əlimdən.

Dur çəngi dindirək, bir ülfət qataq,
Şərab içək, arı, namusu ataq!
Hiylə şüşəsini çalıb daşlara,
Canamazı bir cam şəraba sataq.

Dedim: məsləhət ver bizə, ey ürək,
Şirin meydən içək, acıdan içək?
Dedi acıdan iç, yoxsa Şirinə
Vurğun deyilsən ki, sən də Fərhadtək.

Bu vüsal gecəsi, amandır, yatma!
Murada yetməyə zamandır, yazma!
Xumar gözlərini qapama, ey yar,
Bu, elə düşməyən bir andır, yatma!

Hələ mey var ikən, ey nigar, yatma,
Busəsiz qalarsa dodaqlar, yatma!
Gecə qaranlıqdır, badələr aydın,
Xəlvət bir guşədir, mey də var, yatma.

Gül üzdən niqabı aç gül əyyamı,
Doldur gül fəslində şərabla camı:
Sən kimi yar ilə səhər mey içən –
Aşiqin gül vaxtı coşar ilhamı.

Toxunma könlünə biçarə gülün,
İncitmə qəlbini avarə gülün;
Səbanın eşqiylə olmuşdur, ey dost,
O qanlı köynəyi sədparə gülün.

Vüsalında dolu gecələr getdi,
Kirpiyimdən düşən incilər getdi.
Ürək rahatlığım, munisim, hər şey,
Sən getdin, sənlə bərabər getdi.

Necə deyim eşqin nə cəfa verdi,
Ürəyin mənə nə vəfa göstərdi.
Gecə zülfün kimi uzun olaydı,
Deyəydim hicrində çəkdiyim dərdi.

Hicrində gündüzüm gecə oldu, yar!
Zamanın əlindən könlüm qan ağlar.
Göndər xəyalını bizə bir gecə,
Görsün necə üzür məni intizar.

Məni yerə yıxıb o qəssab kəsdi,
Dedi: "Güman etmə, bu son nəfəsdi".
Düşüb ayağıma üzr istədi o,
Demə, ayağımdan soymaqmış qəsdi.

Sən qəssabsan, mənsə qurbanınam, bax,
Dözərəm çatsa da sümüyə bıçaq,
Adətdir, satırsan kəsdiyini sən,
Məni öldürsən də, gəl, satma ancaq!

Ləl mədənidir, ey sap, məskənin,
Küləyin atıyla yarışır tənin.
İynəsində yarın nə azdır ömrün,
Çimdiyin ki, həyat suyudur, sənin.

Nizami Gəncəvi

QƏZƏLLƏR

Diləyirdim mənə sən bir gecəlik yar olasan!
Pozmayıb peymanını, əhdə vəfadar olasan!

Gözlərin yadları gördükdə gülür nərgiztək,
Bir tikandır mənə qəmzən, nola qəmxar olasan!

Dostluğundan demişəm mən, necə düşmən eşidib,
Məni əğyara xəcil etsən, özün xar olasan!

Mənə dost ol, nə zərər, düşmənim olsun aləm,
Kimsədən qorxmaram, ancaq ki, düz ilqar olasan!

Sən nə quşsan, nə sayaq mən sənə tor qurmalıyam,
Bəlkə sən gözlərə ov, qəlbə giriftar olasan?

Şəhər əhli sənin eşqində Nizami kimidir,
Nə rəva Əhsitanın qismətinə yar olasan!

* * *

Görün, önündə aşiqin şiri necə şikar edər,
Pələng kimi cavanları, bir anda biqərar edər.

Çəkib də kirpiyindən ox, o əyri yayda saxlayır,
Nə işdi ki, vurulmamış bu qəlbim ahu-zar edər?

O dilbərin üzün görüb dağıtmışam libasımı,
İçilməmiş qalan camım şirin-şirin xumar edər.

Necə vəfa tələb edim, bizim o daşürəklidən,
Mənim bu şişə könlümə deyin o daş nə kar edər?

Hər gün onun vüsalını xəyal edib can üzülür,
O hər gecə sayır nə vaxt bu könlü tarimar edər.

Nə qədər zalım olsa da, Nizami, əl götürmə sən!
Gül istəyən tikanla da cəfa çəkib qərar edər.

* * *

Afərin hüsnünə, mən bir belə dilbər istərəm!
Gecələr şəmi yanar, sən kimi gövhər istərəm!

Od ləbin, ud xalın hər biri şəkkər kimidir,
Valehəm onlara mən, bir belə məcmər istərəm!

Duzda çox ləzzət olar, amma ki, şirin olmaz,
Duzlusan həm də şirin, sən kimi şəkkər istərəm.

Müşk zülfün nə gözəl, aləm ənbər dağıdır,
Gör nə xoşdur, gözəlim, bir belə ənbər istərəm.

Bağladın zülfünə qutək bu Nizamini özün,
Söyləyir zülfün ucu bir belə çəkər istərəm!

Nəvai

QƏZƏLLƏR

Canım üzülür hicr ilə, canan gərəkdir,
Könlüm alışır dərd ilə, dərman gərəkdir.

Bu qəm gecəsi aşiqi-pərvanəyəm, ancaq
Başımda mənim şəmi şəbistan gərəkdir.

Qəmzən xoş olur könlümə, ey işvəli dilbər,
Ah, oxlarına bir neçə peykan gərəkdir.

Eşqin gecə-gündüz məni yandırdı içərdən,
Eşq əhli, Nəvai, yana pünhan, gərəkdir.

* * *

Qəmin oxu ki, könüllər evin nizanə qılar,
Bu xak olan tənimə yetcək, orda xanə qılar.

Ləbin bəhanəsiz el qanını tökər hər dəm,
Mənə gəlincə iş, əlbəttə, bir bəhanə qılar.

Könül verib o füsunkar çeşmə bilməz idim
Ki, el içində məni aqibət fəsanə qılar.

Könüldə gövhəri-peykanını ki, yığmış can,
Bu bəlli işdi ki, viranəni xəzanə qılar.

Qurur ölüm toru hər sübh quşlara təzdən,
Sabah yeli ki, çəmən sünbülünü şan qılar.

Nəsibi bülbüli-zərində qəm tikanimidir,
Nəvai nəğməsinə səs verib təranə qılar.

* * *

Yar getdi könüldə onun bir nazı qalıbdır,
Ancaq ki, qulağım dolu avazı qalıbdır.

Göz evini göz yaşları yıxdı bu gün, ey dil,
Yerində onun qəmli xarabası qalıbdır.

Könlüm quşu sünbül saçının toruna düşmüş,
Bülbül kimi hər gül sarı avazı qalıbdır.

Gül fəsli o quş hansı yana meyl eləmiş ki,
Bağ içrə fəqət sərvi-sərəfrazı qalıbdır.

Gəl qəm yemə sən yar sitəmindən ki, Nəvai,
Ömrün çoxu sevdayla keçib, azı qalıbdır.

* * *

Hansı bir çöhrə ki, meyl etsin ona xəstə könül?!
Hansı bir zülf ki, olsun ona vabəstə könül.

Qüssə dırnağı ilə yaralayıb hər tərəfin,
Nəqş edər əymə qaşın şəklini qəlb üstə könül.

Qan demə gül yanağın şövqünə, gül, lalə dərər,
Dərd bağından tutur lalə, gülü dəstə könül.

Könül azad deyilsə, yemə qəm, şeyx, saqın,
Çünki azadəliyi görmədi heç kəsdə könül.

Zülmdən cana gəlib atsa Nəvai eşqi,
Yalvarıb söyləyəcək atma gəl ahəstə könül.

Dante Aligyeri

"QAFİYƏLƏR KİTABI"NDAN

Üç qadın qəlbimi dövrəyə aldı,
İçəri girmədi, kənarda qaldı;
Çünki Amur idi qəlbimə hakim.
Amur olan yerə girməzdi heç kim.
Amur qadınları gördüyü zaman
Sonsuz gözəlliyə olmuşdu heyran.
Tükəndi taqəti, qüvvəti xeyli,
Sükuta qərq oldu, lal oldu dili.
Yorğunluq, iztirab, bir də əziyyət,
Budur üç gözələ düşən son qismət.
Arxayın olmayıb xeyirxah işə,
Keçirir üç gözəl böyük əndişə.
Xeyli sevilirdi onlar bir zaman,
Rədd etmiş onları indiki dövran.
Onları sevməyir insan aləmi,
Gözlərində vardı dünyanın qəmi.
Sanki dost evinə gəlibdir onlar,
Dedim ki, qəlbimdə kimdir hökmdar?
Qırılıb torpağa düşən gül kimi –
Birinci qadının solğun görkəmi,
İztirab sütunu sanki bir əli,

Tökülür üstündən göz yaşı seli.
O biri əliylə tutub üzünü,
Göz yaşı sel kimi yuyur gözünü.
Yalınayaqdı, fəqət nəcib əsilzadəydi,
Nimdaş örtük altından birdən gözünə dəydi,
Amurun, o şey ki, heç açıq, aşkar söylənməz,
Amur xeyli utandı, utanar görsə hər kəs.
Amurun ürəyini sardı dərin mərhəmət,
Soruşdu o hökmdar: kimsən, məni agah et!
Qadın ah çəkərək bir cavab verdi;
Tükənməzdi onun, böyükdü dərdi:
"Sevməyir dünyada məni bir adam,
Hamıya özgəyəm, hamıya yadam...
Sənlə qohumluq hissiylə gəldim,
Mən sənin yanında bəlkə dincəldim.
Doğma bacım olmuş anan əzəldən.
Ədalətəm mən".
Amur susanların sordu halını,
Bildi qadınların hər əhvalını,
Çəkdi insanlarçın xeyli xəcalət,
Çəkdi ürəyində sonsuz əziyyət.
Qadının kədərlə əyildi başı,
Dedi: yetməzmi o axan göz yaşı?!
Acı qəm yaşları axdı gözündən.
Sonra qəmli-qəmli söylədi ki sən,
Hər şeyi yenidən bilsən yaxşıdır,
Həqiqət bilinər hər əvvəl-axır...
"Nil çayı o zaman bir bulaq idi,
Yaşıllıq istiyə olurdu təslim.
Bakir bir dalğanın üstündə o vaxt
Bu qızım dünyaya gəlmişdi mənim.
Sarı saçlarıyla qurulanan qız
Dalğalar qoynunda doğuldu yalqız.
Qızım öz əksini seyr etmək üçün,
Əyilib baxarkən qız doğdu o gün".
Məhəbbət allahı yığdı gücünü,
Sarsıldı qadının hekayətiylə,

Yaşardı gözləri, kəsildi ünü,
Salamladı onu nəzakət ilə:
– Açın gözünüzü, daha bu süstlük,
Silahı da salmış gücündən görün.
Keçmiş zamandakı parıltısını
Necə itirmişdir silahlar bu gün.
Təmkin və səxavət, başqa qohumlar
Dilənçitək gəzir hey diyar-diyar.
İnsanlar ah çəkib qoyun ağlasın,
Pisləyib taleyi, matəm saxlasın,
Sizlər də bilin ki, insandan heç kəs
Bu işlərdə bir haqq-hesab istəməz.
Biz susa bilmərik, çünki bir kərə
Əbədi qayadan enmişik yerə...
Nə qədər pis olsa halımız fəqət,
Bir gün doğulacaq yenidən əlbət.
Keçmiş parıltını ona qaytarar,
Gələcək dünyada mütləq bir zaman.

A.S.Puşkin

DAYƏMƏ

Ağır günlərimin munis həmdəmi,
Mənim ürək dostum, mehriban qarı.
Çoxdan gözləyirsən məni, eləmi?
Şamlıqlar içində axşam çağları.
Yalqız otağında oturmusan tək,
İndi xəyalından keçir, ah, nələr.
Bəzən mürgüləyib fikrə gedərək,
Qırışıq əlindən düşür iynələr.
Bağlı qapılara baxırsan hərdən,
Yorğun fikirlərin çəkilir dara.
Sıxılır ürəyin qəmdən, kədərdən,
Baxırsan qaranlıq uzaq yollara...

GÜL

Bəs gülümüz hardadır,
Deyin, dostlar, aşnalar,
Bəlkə son bahardadır
Almış ətrafını xar.
Ömrün də varaqları
Öylə solan çiçəkdir.
Gəlmədən ilk baharı –
Üzülüb gedəcəkdir.
Ancaq bircə arzum var:
Ömrüm yetmədən başa –
Doyunca ağ zanbağa
Eyləyəydim tamaşa...

PƏNCƏRƏ

Bu yaxın günlərdə axşam çağında,
Qərib ay gəzəndə bahar bağında,
Yerlər nur alanda həzin şəfəqdən,
Pəncərə dalında bir qız gördüm mən.
Görkəmi dalğındı, baxışı xumar,
Üzmüşdü könlümü acı intizar.
Kölgəli yollarda qalmışdı gözü,
Əsirdi, həycandan qalxırdı köksü...
Burdayam! Səsləndi biri qəflətən...
Qız quştək silkinib qalxdı yerindən,
Pəncərəni açdı tez titrəyərək,
Qovdu buludları bu anda külək...
Qara pərdə çəkdi ayın üzünə,
Öz-özümə dedim min alqış sənə.
Ey bəxtiyar insan, bəxtiyar insan,
İndi məhəbbətdən kam alacaqsan...
Bir belə sevimli gün olacaqmı,
Mənim də pəncərəm açılacaqmı.

GÖZƏLƏ

Bu əlvan bəzəklərin, xoş səsin, baxışların,
Sakit şirin gileyin, gözəl nəvazişinlə
Yandırıb gənc ürəyi, yüngül zəfər yolunu,
Göstərməkdə məqsədin nədir, ey gözəl, belə?
Bu riyakar incəli, yalançı hicab nədir?
Bu qeydsiz yorğunluq, nədir titrək dodaqlar,
Əbəsdir hiyləgərlik, günahkar bir ürəkdə,
Nə canlı bir duyğu var, nə təmiz bir həyat var!
Sənə soyuq qəzəbdir mənim mənhus cavabım.
Təkəbbürlü hüsnündən qaranlıq gecələrdə
Söylə, ey gözəl qadın, kimlər bir kam almamış?
O murdar mənzilinin ləkəli qapısını
Gecələr cəsarətlə kimlər gəlib çalmamış?
Öz solğun damətini başqasına apar sən.
Oxşa naşı qəlbini: uzaq, ey gözəl, məndən,
O yorğun ağuşunda başqasını sev, aldat,
Könlümə hakim olmaq sevdasını tamam at.
O xain qucağına getməz ilham aşiqi,
Başqasına apar sən, yalançı yüngül eşqi.
Saxta məhəbbətinin satqın zəncirlərini.
O acgöz tamahının ən acı zəhərini,
Məcburi arzuları qızıllara satılan
Soyuq, süni fərəhə ram olmaram heç zaman.

* * *

Mən də eşitmişəm bu dünya mülkü
Vahid bir dostluqla gözəldir əlbət...
Onsuz bu aləmin yoxdur ləzzəti,
Onsuz həyat dolu qüssə, fəlakət.
Sakit bir dostluğun olmasa əgər
Ömrün-günün gəlib işıqsız keçər.
Dinlə, lakin başqa bir hiss də vardır,
Həm yorar insanı, o həm məst edər.
Zəhmətdə, qayğıda dinclik zamanı

Aman verməz, səni çeynəyib didər.
O zalım bir hissdir, ruhu parçalar,
İztirab içində sönər qəlbimiz,
Ümid şölələri yanmasa bir an
Bu dərin yaradan sağalmarıq biz,
Bax, məni yandıran ehtiras budur.
Solub məhv oluram, yaman indidən
Bu dərddən sağalmaq istəmirəm mən...

* * *

Başımın üstündə toplanmış yenə
Sükuta qərq olmuş yığın buludlar.
Qəza fəlakətlər düzəldir mənə,
Hazırlayır yenə müdhiş bir qərar.
Etinasız qalıb taleyimə mən
Bu çətin sınaqdan çıxacağammı?
Məğrur gəncliyimin mətanətiylə
Qəzanın hökmünü yıxacağammı?
Fırtınalı keçən coşqun ömürdən
Yorğun, gözləyirəm yeni bir tufan.
Bəlkə xilas olub qaldım yenə də,
Sakit bir sahildə dincəldim bir an.
Lakin hicranımı duyub əzəldən
Bu acı saatda, bircə mələyim,
O zərif əlini bir an olsa da,
Son dəfə sıxmaqdır yalnız diləyim.
Sakit təbiətli, mülayim mələk,
Söylə yavaşcadan mənə əlvida.
Qüssələnən, kədərli nəzərlərini
Qaldırıb son dəfə bax sən bir daha...
Gənclik qürurilə çırpınır ürək,
Həzin xəyalınla hər yanda olsam.
Cəsarət, mətanət duyar ürəyim,
Məhəbbətin verər könlümə ilham.

EV PƏRİSİ

Ey dinc malikanəmə gizli hamilik edən
Xeyirxah ev pərisi, sənə yalvarıram mən.
Hifz et mənim kəndimi, göy meşəmi, bağımı,
Ailəmin bu kiçik evini, otağımı.
Qoy çöllər titrəməsin yağışın soyuğundan,
Sərt payız küləkləri əsib verməsin ziyan...
Qar yağsın asta-asta, qoy ağartsın hər yeri,
İsti bir örtük kimi örtsün nəmli çölləri.
Sən ey gizli keşikçi, babamın yurdunda qal,
Sən bu xoşbəxt evimi yad gözündən uzaq sal.
Onun ətrafını gəz qayğıkeş keşikçitək,
Qoy balaca bağımda əsməsin acı külək,
O mürgülü suların sahilini qoru sən.
O köhnə darvazalı hasarları çürüyən,
Balaca bostanımı sev, özün qoru barı.
Təpələrin yamyaşıl sevimli yamacları
Gözlərindən qaçmasın, o mənim dolaşdığım
Çiçəkli çəmənləri, yastı təpələri sev,
O sərin xoş küləkli iyli cökələri sev,
Sev ağcaqayınların səsli yarpaqlarını,
Göyə qalxan şamların körpə budaqlarını.
Orda dolaşmadığım bircə yer qalmamışdır
Onlar hamısı bir-bir ilhamıma tanışdır.

QIŞ SƏHƏRİ

Nə gözəl bir gündür, hava şaxtalı,
Günəş də parlayır, sən yuxudasan.
Nazlı gözlərini aç, sevimli dost,
O şirin yuxudan, gözəlim, oyan.
Göydə dan ulduzu parlarkən səhər
Şimal ulduzutək hüsnünü göstər.
Bulanıq göylərə çökmüşdü zülmət,
Gecə ağlayırdı qəzəblə tufan.
Görünürdü qara buludlar içrə

Solğun kölgə kimi ay da səmadan.
Oturmuşdun qəmli fikrə dalaraq,
İndi pəncərədən bayıra bir bax.
Mavi göy altında uzanıb sakit,
Gözəl xalça kimi döşənmiş çöllər.
Bir meşə qaralır kənarda yalnız.
Parlayır günəşdən qarlar sərasər.
Qırovun altında göyərir şamlar,
Çayda buz altında bir parıltı var.
Kəhrəba rənginə boyanmış otaq.
Soba çıtırdayıb nəşəylə yanır.
Xoş olur yataqda xəyala dalmaq,
İnsanın qəlbində arzu oyanır
Kirşəyə qoşdurub kəhər atları
Uçaqmı bu qarlı düzlərə sarı...
Səhər qarı üstə sürüşərək biz,
Gözəl dost, gəl çıxaq, gəzək baş-başa.
Çapdırıb boz atı gözəl düzləri,
Bu boş düzənlərə edək tamaşa.
Gəzək meşələri anıb bu ili,
Könlümə xoş olan gözəl sahili.

M.Y.Lermontov

İKİ ƏSİR QIZ

Sevirəm, ey nazlı Zairəm, səni,
Sevirəm, ey yunan gözəli, qəlbən.
Dünyanın nə qədər zinəti varsa,
Ayağın altında səpələrəm mən.
Seyr edərkən böylə sən xumar-xumar.
Mavi gözlərinlə bütün hər yanı,
Olarsan könlümə sən bir hökmdar.
Qul kimi tərk edib mən bu dünyanı,
Gəzərəm arxanca hey diyar-diyar.
Qoy çalsın, oynasın nazənin Gülnar,
İspan rübabını ağ əlləriylə;
Nə qədər istəyir çalsın füsunkar,

Ona həsəd etmə, nazlı mələyim,
Ey eşqim, əmələm, həzin diləyim.
Atəşin Gülnarın şux nəğməsini,
İncə gitaranın həzin səsini,
Bu şərq güllərinin rayihəsini
Verərəm can alan bir baxışınçın.
Hazır Sultan Əhməd keçməyə, inan,
Sənin bir baxışın, bir öpüşünçün
Qızıldan, incidən, ləldən, yaqutdan!..
– Sultan! Vəhşi, yoxsul yarandım əlbət,
Mən məğrur bir ruhla doğuldum fəqət.
Əsirəm, yoxsulam, yoxdur qərarım,
Nifrət bəsləməyə var ixtiyarım.
Unut, qoca, unut, boş arzuları,
Könlümün özgəylə olmuş ilqarı!
Qəlbim ilk eşqinə bəslər sədaqət,
Qəzəbli sultanla etmərəm ülfət.
Bil ki, nə nəvaziş, nə sitəm, nə naz,
Buz kimi qəlbimdən, sevgi qoparmaz!
Hazıram ölməyə, etmərəm fəryad,
Söylə hazırmıdır sizin də cəllad?
Gecə çökmüş aydın və cazibədar,
Bu sakit gecədə nə xoş ətir var.
Ədəm gecəsindən gözəl bir gecə,
Geniş Sareqradda yatır səssizcə.
Yalnız guruldayır uzaq ləpələr,
Çarpır dik-divara yenə sərasər
O hərəmxananın pəncərəsindən
Gümüş ay işığı axıb nurlanır.
O bəzəkli, incə, əlvan şişələr
Soyuq bir atəşlə alışıb yanır.
Parlayır qotazlar, xara divarlar,
O yumşaq taxtlarda min bir bəzək var.
Bu sərin gecədə nəfəs alaraq
Bardaş qurub sakit oturmuşdur bax,
Pəncərə önündə yalnızca Gülnar.
Çırpır sahillərə coşqun dalğalar.

Hər yer sakit, susmuş elə bil cahan,
O incə əllərdən düşür bu zaman,
Səssizcə təxt üstə düşür gitara,
Gülnar baxır, baxır ağ dalğalara.
Gülnar coşqun bəhri hey seyrə dalır,
Uzaq vətənini yadına salır...
Orda hər bir bucaq könlünə yardı,
Orda bol şəftəli və limon vardı.
Dolaşır xəyalı öz ellərində,
O Qvadalkvirin sahillərində
Dibində köpüklər yatan divara
Söykənərək baxır ac dalğalara.
İspan qızı səssiz dinləyib dalır,
Ay onun üzünə solğun rəng salır.
Zərif bir bağırtı... bir qadın səsi,
Büllur dalğalarda divar kölgəsi
Titrədi. Ləpələr çarpdı bu gecə
Ağ bir şey göründü, sonra gizlicə
Yox oldu. Qalmadı ondan bir əsər,
Yalnız çırpınırdı oynaq ləpələr...
Pəncərə önündən qalxaraq Gülnar.
Qısqanc təbəssümlə edib iftixar,
Yenə gitaranı əlinə alır,
Vəhşitək o ispan nəğməsi çalır.
"İntiqam" sözünü eləyir təkrar.
Coşqun nəğməsini çalır füsunkar
Qəzəbli bir sevinc vardır üzündə,
Od yanır gənc qızın siyah gözündə.

Adam Mitskeviç

TƏRS ARVAD

Özünü öldürənlər artmış bizim zamanda,
Odur, çay qırağında, körpülərdə, hər yanda
Qarovul düzülərək çoxlu jandarma durur,
Rəngi qaçmış bir adam gördümü, dərhal sorur:

– Nə var, sizə nə olmuş? – Ondan cavab almamış,
Biçarənin halına belə bircə qalmamış.
Özünü ağalara göstərməkçün qəhrəman, –
Qataraq qabağına gətirir onu haman.
Guya xilas edərək həyatını bu kəsin,
Tez açır qarşısında qapısını məhbəsin.
Senanın sahilində bir dəfə, başyuxarı,
Bir nəfər də qaçırdı; jandarma ona sarı.
Yüyürüb dayandırdı: – Ey, hara gedirsiniz?
Kimi axtarırsınız, söyləyin, burada siz?
– Allah eşqinə, əl çək! – dedi yüyürən nəfər, –
Arvadım suya düşüb, yoxdur ondan bir əsər.
Görürsənmi, ağlımı tamam şaşqınlıq sarmış,
Görünür ki, yazığı amansız çay aparmış.
Jandarma irad etdi: – Yazıq, görünür ki, siz,
Dünyada su elmindən tamam bixəbərsiniz.
Nə üçün düşmüşsünüz belə yersiz tələşə,
Aşağı getməkdənsə, yüyürürsünüz başa?
Arvadınız bu çaya düşüb axmışsa əgər,
Axınla aşağıyla aparacaq ləpələr...
Kişi fikir verməyib, yuxarı səmtə getdi.
Yalnız o jandarmaya belə etiraf ifadə etdi:
Məni çaşdırmamışdır, jandarma, inan, yadım,
Ancaq çox tərs arvaddır mənim bədbəxt arvadım.
O, dünyada heç kəsin etdiyi kimi etməz,
Çayda da başyuxarı gedər, aşağı getməz.

Şandor Petefi

OĞLUMA

Verin oğlumu mənə, atəşlə, hərarətlə
İstəyirəm onu mən alam, bağrıma basam.
Elə bil ürəyimdən bir pöhrə qalxmış təzə,
Elə bil ki, yenidən doğmuşdur məni anam.

Salamlayıram səni, mənim zərif budağım,
Ah, nə qədər əzizsən, nə şirinsən, a körpəm.
Sən yanıqlı ağlayıb, qəzəblə qışqıranda,
Sənin bu bağırtına qarışır şirin nəğmələm.

Ürəyim nə qədər, bax, sevinir səadətlə,
Baxıram gül üzünə, baxıram məhəbbətlə.
Səni suya çəkməyə özgə su lazım deyil,
Mən sevinc yaşlarıyla isladıram səni, bil.

Mən bir münəccim kimi qiymətli ulduzumun
Keşiyində durmuşam, onu qoymaram gözdən.
Baxıram üzündəki cizgilərə, baxıram.
Bilirəm gələcəkdə sən nələr görəcəksən.

Nurlu ulduz göylərdən işıq saçır yerlərə,
Ətirli çiçəklərə nur saçır zaman-zaman.
Soyuq nəfəsli qırov bircə düşməsin tezdən
O zərif çiçəkləri tələf etməsin, aman.

Dayan, ölüm, oğlumu aparmağa tələsmə,
O ki mənim yanımda oturub qalmayacaq.
Ona yaxın düşmə, gəl, onun yolunu kəsmə,
Hazırlayıram onu vətən üçün mən ancaq!..

Baş əyib qocalığa, edib ona itaət,
Döyüş sıralarından çıxıb getdiyim zaman,
Bilirəm ki, yerimdə qalxıb oğlum duracaq.
O daha da hünərli olacaq atasından.

Qoy qəbrimin üstündə söyləsinlər gələnlər
Onun cansız vücudu burda torpaqda yatır.
İgid qəhrəman oğlu yaşayır iftixarla,
Onun bariz ruhunu ürəyində yaşadır.

Şelli

MƏHƏBBƏT FƏLSƏFƏSİ

Çeşmələr axıb-axıb çay olur,
Çaylar axıb qovluşur ümmana.
Yazın ətirli məhi dərədə
Qovuşub gedir xəfif dumana.
Həyatda yalqız olmaq günahdır,
Boyun əyib taleyin hökmünə
Bütün varlıq birləşir, qovuşur.
Niyə qaçırsan məndən sən yenə?
Hər tərəfdə qovuşmaq həvəsi;
Qalxıb göyə boylanır dağ başı.
Dalğa girir dalğanın qoynuna,
Sanki bacı oxşayır qardaşı.
Torpaq yatır gündüzün qoynunda,
Ay da öpür dənizin üzündən.
Dodağının dadını duymasam
Həzz almaram dünyadan, bil ki, mən.

Robert Berns

QIŞ KEÇDİ

Qışın şaxtası keçdi, gəldi ilıq bahar,
Budaqlarda nəğmələr oxuyur bala quşlar.
Coşqun bahar eşqiylə çırpınır təbiət də,
Könlüm necə açılsın, məni atıb getdi yar.

Qara moruq gül açıb oyanmış arılarçün.
Quşlar dolanıb bağı oxuyur: güllər, açın.
Kiçik yuvalarında quşlar verib baş-başa,
Mənim yarımdan ancaq hicran qaldı yadigar.

Kosta Xetaqurov

ETİRAF

Mən şair deyilkən oynardım sözlə,
Açmazdım dərdimi heç dosta-yada;
Sevgimi, çəkdiyim iztirabları
Kimsəyə demədim mən bu dünyada.
Qəlbimin sirrini açaraq bu gün,
Artıq söyləyirəm, eşitsin cahan:
Sevirəm Anneti həyatım qədər.
Minbir iztirabla sevirəm candan.

* * *

Sönür fikirlərim gözümdə duman;
Sanki donmuş artıq vücudumda qan.
Payız gecəsindən qəmlidir könül,
Nəğmə susmuş, əsər qalmamış yoldan.
Keçmişin izi yox... Ən gözəl illər,
Xəstə, həyəcanlı bir yuxu qədər,
Mənasız, məqsədsiz bu xoş dünyadan
Bir oyuncaq kimi gəlib keçdilər.
Bir şey gələcəkdə... nəşə, səadət,
Mənə lazım deyil, etmədim adət, –
Hər an belə mənə yanan olsaydı,
Bütün həyatımı verərdim, əlbət.

Anaki Sereteli

XƏNCƏR

Xorasan dəmiri, xəncərim, səni
Sevirəm ta əzəl gündən bəri mən.
Bir sənsən ümidim, pənahım mənim.
Sənsən qoruyanım azğın düşməndən.

İtilərəm səni, kəskin xəncərim,
Silib ürəyindən pası, ləkəni;
Bir arxa, bir qardaş görmək istərəm,
Əzilən insana dünyada səni.

Sən bir neştərsən ki, əziz xəncərim,
İtidir, hər iki üzün də yaman.
Sənin sahibinin qəlbi poladdır,
Dəmirtək bir əldir bu səni tutan.

O səni yaradıb bərkidənlərə,
Mənim ürəyimdə çox ehtiram var.
Onunçun sevdim ki, səni, xəncərim,
Düşmən anasını qoyursan ağlar.

Düşmənin qəlbinə elçi ol, xəncər,
Mənim salamımı sən ona yetir.
Qoy mürəkkəbqabı olsun ürəyi,
Sənsə qələm kimi bu ürəyə gir.

İtilərəm səni, dəmir xəncərim,
Ey polad xəncərim, itilərəm, bil,
Çıx qınından, yetər, çıx ki, bu zaman
Qında yatmaq sənə yaraşan deyil.

XƏSTƏ ŞAİR

Ey qəddar taleyim, amansız bəxtim,
Sən məni azdırdın, çıxardın yoldan.
İncitmə könlümü, yetər, amandır,
Qoy açım gözümü dünyada bir an.

Mən ancaq keçmişin bir qarasıyam,
Gələcəyin isə kölgəsiyəm, bil,
Dünyanın borcundan nə mən, nə bir kəs
Qurtarmamış, nə də qurtaran deyil.

Boş yerə sabaha güvəndi könlüm,
Arzular bir fərəh gətirdi mənə;
Şirin nəğməsilə gözəl Çonqurim
Ümidsiz qəlbimi ovutdu yenə.

Çonqurim, ey gözəl Çonqurim mənim,
Xəyal dənizində üzürsən bu gün.
Ahəngdar səsinin, inan ki, yenə,
Eşqilə çırpınır ürəyim bütün.

Dəstəyin bənövşə qızılgül sənin,
Tellərin bülbülün dilinə bənzər.
Qanadların qartal qanadı kimi,
Uçar nəğmələrin, aləmi gəzər.

Uçub diyar-diyar uzaq ellərə,
Alıb qollarına sən apar məni.
Ölüm yaxın düşməz mənə dünyada,
Çünki oxuyuram sənin nəğməni.

Alqış varlığına, eşq olsun sənə,
Ey göylərdən gələn ilahi səda!
Qəlbim tellərinlə bir çırpınır, bil,
Sənnlə yaşaram mən bu dünyada.

Qriqol Abaşidze

VƏTƏN

Vətən yalnız dağlar, dərələr deyil,
Vətən qəlbimizdə yanan atəşdir.
Vətən azadlıqdır, vətən ümiddir,
Vətən üzümüzə doğan günəşdir.

Dilində vətənin müqəddəs adı,
Vətənçin ölümə gedir igidlər.
Vətənin eşqiylə yaşayıb ölmək –
Budur insan üçün ən böyük hünər.

Məni vətənimdən ayıra bilməz,
Gurlasa başımın üstündə tufan.
Köksümün içində çırpınan ürək,
Vətənin eşqiylə vuracaq hər an...

* * *

Yaroslav Smelyakov

Xəstələnərsəm əgər,
Mən həkim çağırmaram.
Dostlarıma deyərəm
Çox ağır olsa yaram:
Səhradan döşək salın,
Pərdə çəkin dumandan;
Parlasın başım üstə
Gecə ulduzlar hər an.
Mən döyüşlər görmüşəm,
Dəymədüşər deyiləm.
Bu qızğın döyüşlərdə
Asanlıqla əyiləm...
Yaralanarsam əgər,
Yaramı dağ yoluyla
Sarıyın, deyərəm mən.
Üstümə örtük salın
Payız çiçəklərində.
Nə toz, nə damcı dərman
Mənə deyildir gərək,
Badəmdə şəfəq gülsün,
Oynasın nadinc külək.
Şəlalənin gülüşü,
Səhraların nəfəsi,
Hər xəstəyə şəfadır,
Dirildər o hər kəsi
Dənizlərdə, dağlarda
Əsrlərin izi var.
Əbədiyyət içində

Yaşayır bu insanlar.
Yollar yenə dumandır,
Son yolumuz deyildir
Xəstəxana küncləri.
Son yolumuz, əlbəttə,
Göylərdir, kəhkəşandır.

Vitezslav Nezval

ÜMİD ANA HEÇ ZAMAN GƏZİNTİYƏ ÇIXMAYIR

Ümid ana heç zaman
insanlar tər tökdüyü
tarlalara
gəzintiyə çıxmayır.
O yerdə ki, bacarmayır kömək etsin.
Qərar verir çıxıb getsin.
O yerdə ki, kömək edə bilməyir o,
Heç olmasa suyu sərin bulaq olub,
Şırıltılı bir çay olub,
Heç olmasa kölgəli bir budaq olub,
Nəğmələri torağay olub,
Heç olmasa adi yel dəyirmanı
Əfsanələr deyə-deyə
Təsəlliyə qovuşdursun bir insanı.
Əgər mümkün deyildirsə bunlar ona,
Çıxıb gedir Ümid ana.
Ya da qalar pərdələrin arxasında
Gizlənərək,
Heç olmasa ordan qaynar baxışlarla
Kömək etsin böyük işə.
Qalxıb enən biləklərə,
Yuxusundan tez oyanan çiçəklərə,
Səhər-səhər, göydən yerə
Durna kimi qanadlanan
Buludların karvanına.

KÜÇƏ ZİBİL QABLARI

Heç zaman, heç kəsə paxıllıq etmə, qəlbim!
Heç zaman, heç bir zaman
paxıllıq damğasını
vurmasın sənə heç kim.
Yoxsa öz qürurunu, ürəyim, itirərsən.
Dönərsən külqabına,
zibil dolan qablara.
Ey möhtəşəm ürəyim, sən hara,
çirkab hara!
Sən yüksək bir qüllәsən,
möhtəşəm bir qalasan.
Sən bütün aynalara,
sən bütün ürəklərə
Baxıb bir səs salasan,
Sən büllur kimi təmiz,
əzəmətli ürəksən.
Çirklənsən öz eşqini, duyğunu itirəcəksən.

ÜMİD ANA AĞLAMADAN DÖZÜR AYRILIQLARA

Ümid ana ağlamadan
Ağrılara, əzablara dözə bilir.
Çünki doğma – ağrılara
tab gətirmək deməkdir.
Ağ mələfə üstündə
məsum bir varlıq doğmaq.
Böyük bir məhəbbətlə
başqasını gətirərkən dünyaya,
elə bir az ölməkdir.
Ümid olmaq dünyada
Hər həyatın ümidsiz
sonuyla barışmaqdır.
Bunlara baxmayaraq,

Yeni bir həyat vermək
ana üçün bir haqdır.
Kürək çəkən qolların
Qıc olması yamandır,
Yumruğun qıc olması elə qorxulu deyil.
Durğun sular altında burulğanlar
yamandır.
Doldurub qayıqları aşırar dalğalar bil.
Ana olmaq həm bir çay,
Həm də suya baş vuran;
Ana olmaq su olmaq, həm də bir daş olmaqdır.
Ümid olmaq – məyusluq aynasıtək
ümiddən, sevincdən çox uzaqdır.
Bir ayna ki, nəhəngtək
əbədi parıldayan
Öz daş karxanasını,
Məhəbbətin naminə
yalnız dəyişəcəkdir.

NƏĞMƏ

Buludlara səs salır
Çal xoruz səhər-səhər:
Sübhün açıldığını
hamıya verir xəbər.
Xaş-xaş dənələri kimi
Göydən şəfəq yağır yerə,
Tez oyanmış çiçəklərə.
Biçinçilər itiləyir orağını.
Hamı qalxır
Alıb sübhün sorağını.
Xoruz qalxıb yüksəklərə,
Nəğmə deyir çiçəklərə;
Sən yuxuda olan zaman,
Sabahkı gün gəldi, oyan!

ÇƏTİN HƏYAT YAXŞIDIR

Çətin həyat yaxşıdır
Asan ölümdən əlbət,
Dövrəmizi alsa da
iyrənc işlər, kin, nifrət.
Çətin həyat yaxşıdır
asan ölümdən əlbət.
İztirablı yollarla
irəliləmək yaxşıdır,
Yaralı ayaqların
qanasa da yollarda.
İrəli yüyürməyə arzu-dilək yaxşıdır.
Yaxşıdır məhəbbətdən,
xəstəlikdən incimək.
Amma ki, olmayasan
Məzar qaranlığında
açan marqarit çiçək.

Yaroslav Seyfert

BEŞİK NƏĞMƏSİ

Dörd divar arasından
Enir aşağı tavan,
Yırğalayır ana körpə balanı,
Çırağın işığı tutur tavanı...
Elə bil bir mələk qalxır yuxarı,
Qorxudur pərvanəni
onun qanadları.
Beşik yırğalanır
hey yavaş-yavaş
Ananın gözlərində parıldayır inci yaş.
Sanki büllur arxasından
Ana körpəyə baxır...
Beşik yırğalandıqca
Ananın dodağından

Həzin bir nəğmə axır:
– Sən qayğısız, sən rahat
Yatırsan, əziz oğlum.
Ulduzlar çıxanadək
Yırğalar səni qolum,
beşikdə incə çiçək...
Küçələrdə, hündür evlər arasından,
Sarayların, meydanların yanından
İşdən evə qayıdır,
gəlir yorğun adamlar,
dəstə-dəstə, ya tək-tək;
indi atan gələcək.
Sən qayğısız, sən rahat
Yatırsan, körpə oğlan...
Bilmirsən ki, yoxsullar
Nəçin belə çox ağlayır.
Neçin bir parça çörəyi
Bir-birindən əsirgəyir,
zalım insan,
Bir gün gələr bu qapıdan
Çıxıb gedərsən dünyaya...
Dünyada nə ağrı olar,
nə aclıq:
Nə xəstə, nə aciz, nə də bir yazıq.
Quşlar gəlib insanın
ovcundan dən yeyər.
Meşədən marallar, cüyürlər
gələr,
Bizim küçələrdə gəzib dincələr,
Hər yandan ucalar hey şənlik səsi,
Bayraqlar yellənər pəncərələrdən.
İnsan bir dost kimi sevər hər kəsi...
Sən qayğısız, sən rahat,
yatırsan şirin-şirin.
Kaş ki, heç olmayaydı
bu işlərdən xəbərin.
Bütün yoxsul adamlar

Bir bayrağın altında
getməyə verib qərar.
Nəğmə səsləri hər yana yayılanda
Atan da gedəcəkdir onların
arasında;
Bəlkə ilk sırasında...
Açılanda güllələr,
tüstü, duman qalxanda,
Biri düşüb yaralı
döşündən qan axanda,
Onların arasında
olmayaydın kaş ki, sən
Öpərəm gözlərindən.
Getdikcə azalır ananın səsi,
Qaranlıq bir gecə girir içəri,
Kəsilir ananın həzin nəğməsi...
Fənərçi küçədə fənər yandırır.
Ana əli beşik yırğalandırır.
Beşik yırğalanır
hey aram-aram.
Ana təkrar edir: yat, əziz balam!..

Qabriela Mistral

AYAQLAR

Körpə ayaqlarınız
Göyərir şaxtadan,
Neçin qızdırmır sizi,
Neçin baxıb keçir insan?!
Sizi yaralayır daşlar,
Sizə zibil atırlar,
Sizi didir, dişləyir
Külək, soyuq, buz və qar.
Kor gözlər görməyir ki,
Keçdiyiniz yerlərdə
Ağ zanbaqlar açılır,
Ətir və nur saçılır

Qanlı pəncəniz sizin
Toxunanda torpağa,
Tapdanmış cığırlardan
Güllər qalxır ayağa...
Bu bilinməz yollardan,
Bu keçilməz izlərdən
Keçin, gedin, balalar,
Olarsınız qəhrəman.
Sizdən qiymətli, əziz
Bu dünyada nə vardır?
Sizi görmür insanlar,
Onlar kordur ya kardır?!

ƏLLƏR

Əllər, körpə əlləri,
Sizə deyirlər sülək...
Axır sizi gözləyir
Əsil böyük gələcək,
Əllər, körpə əlləri,
Hasar diblərindəsiz,
Ağacda meyvələrə
Çatmır sizin əliniz.
Pətəkdəki şirin bal
Sizə olmadı qismət,
İnsanlar keçib gedir,
Anlamır sizi fəqət.
Əllər, ağappaq əllər,
Özgə zəmilərində
Yetişir, dəyir sünbül...
Yoxsulların, yolçuların
Əli tələb etməz, istər...
Sizə qida verən kəslər
Qoy var olsun
dünya qədər.
Qoy var olsun
o kəslər ki,

dilsiz əlin fəryadını
eşidəcək...
Qaytaracaq yerinizi
bu dünyada,
Yaradacaq sizin üçün
bir gələcək.

* * *

Yanvar günəşinin qızmarlığında
Buğda dən bağlayır, yetişir bir-bir.
Barmaqlar bükülü, gözlər qapalı,
Kirpiklərdə sanki duman pərdədir.
Elə bir qüvvətlə yetişir buğda,
Onu açıq-aydın hiss edirəm mən...
Sünbülə əlimlə sığal çəkirəm,
Üzümü sürtürəm nəfəs çəkmədən.
Xeyli həyəcanlıdır dənin dəyimi,
Qorxmur-bəkati qəflətən sınar.
Ancaq ki, bu dəyim qorxudur məni
Görəndə sünbüldə nə gərginlik var.
Aman bilməz qeyri sərt əllərilə
Ölüm sünbülləri qırsa da birdən,
Yerə düşən dənlər göyərəcəkdir,
Ölümsüzdür buğda, ölümsüzdür dən.

* * *

Anna Axmatova

Yazqabağı elə günlər olur ki,
Qalın qar altında çöllər dincəlir;
Əsir həzin-həzin ilıq küləklər,
Quru ağacların sədası gəlir.
İnsanın bədəni çox gümrah olur,
Öz köhnə evini tanımır bəzən.
İnsanı bezdirən köhnə nəğmələr,
İnsana xoş gəlir sanki yenidən.

* * *

Marina Svetayeva

Günəş yalqız, yeganədir,
Addımlayır yer üzündə
şəhərləri gəzə-gəzə.
O mənimdir, mən vermərəm
Günəşimi heç bir kəsə.
Nə bir saat, nə bir şəfəq
heç bir zaman
Şəhərlərim çıxmasa da
bir əbədi qaranlıqdan.
Əllərimə götürürəm,
nə dövr etsin, nə fırlansın,
Qoy əllərim, dodaqlarım,
qəlbim alov tutub yansın,
Bir əbədi qaranlığa
qərq olarsa,
Arxasınca yüyürərəm birnəfəsə.
Yox, Günəşim, mən vermərəm
Səni, inan, heç bir kəsə.

Marqarita Aliger

UŞAQLARI QORUYUN, ANALAR

Uşaqları qoruyun, analar,
Qızmar günəşdən,
Sərin küləkdən,
Uzaq yollardan
Qorumayın ancaq.
Əmr edir anamız torpaq
Hər gün, hər saat
Uşaqların doğulduğu gündən
Bilin, anlayın,
Yalnız sizin üçün deyil,
Doğma xalqımız üçün

Böyüdür körpələri vətən!
Taybatay açılmış pəncərələrdən
Qorumayın uşaqları.
Uşaqların ayağını
qorumayın nəmişlikdən, sudən...
Nazik körpə ürəyinə
Yara vurmayın, aman,
Uşağın kövrək olur
Könül aləmi,
Buraxmayın ora
Qüssəni, qəmi...
Dizi sıyrılarsa
Yoxdur qorxusu,
Təmiz paltarına
Düşsə ləkələr,
Əli-üzü çirkli
olarsa əgər,
Yuyub təmizləyər
Onu adi su...
Körpə vicdanını
Qoruyun yalnız...
Ürəyinə ləkə düşərsə
bir az,
Vicdan ləkəsini
Aparmaq olmaz!

Uşaqları qoruyun, analar,
Amansız həqiqətdən qorumayın
əsla,
Bələkli don geymiş riya
Gəlməsin yaxın,
Sərhədlərdən axın-axın
Sürünüb gələn üfunətdən
Qoruyun bəlaları.
Qorumaq lazım deyil
həqiqətdən.

İnsan ləyaqətini,
İnsan qürurunu,
İnsan namusunu
Tutun müqəddəs...
Dünyada azad
Bir diyarın
Körpə vətəndaşı
Qul ola bilməz.
Qurub yaratdığımız
Azad dünyayla
fəxr etsin onlar.
Əmək dünyasında
Qaliblər kimi
Yeni zəfərlərə qoy getsin onlar.
Korluqdan qoruyun uşaqları siz;
Yaxşı deməsinlər
yaman işlərə...
İnanın, hər cürə soyuqdəymədən
Korluq dəhşətlidir,
korluq, min kərə.
Uşaqları qoruyun.
Sərt küləkdən,
Yağışdan, tufandan
Lazım deyil onları qorumaq.
Qoruyun, qoruyun ancaq
Hələ sağ-salamat gəzən
Rüşvətxordan,
Talançıdan,
Alverçidən,
Riyakardan,
Yalançıdan...
Onların zəhərli nəfəsindən
Qoruyun uşaqları.
Bu üfunət
Körpələrin üzünə
Toxunmasın barı.
Yer üzündə sülhü qoruyun.

Ədaləti, xalqların
qardaşlığını qoruyun...
Bir gün deyəndə ki, "vaxtdır, gedək biz!"
Qapıdan çıxanda, vidalaşanda;
Uzaq yoldan keçib
dağlar aşanda,
Övladlar bəsləyən, şanlı analar,
Siz də evinizdə rahat qalarsız,
Onları fərəhlə yola salarsız.

Lüdmila Tatyaniçeva

AŞIRIMDA

Bir cüt yaşıl ağac gördülər onlar
Hündür aşırıma dırmaşıb qalxcaq.
Qucaqlayıb durmuş qoz ağacını
Cavan budaqlarla alaca qovaq.

Oğlan papağını əzib əlində
Qıza çəp-çəp baxdı, əsəbi baxdı.
– Gör nə bərk sevirlər bu bəxtəvərlər, –
Dedi, sinəsindən bir ah da qalxdı.

Bu acı sözləri rədd etdi gənc qız,
Güldü şirin-şirin, güldü ürəkdən.
– Buna da məhəbbət deyirsən, yoxsa
Məhəbbət sanırsan bunu yoxsa sən.

Tezcə yanıb sönən bir atəşdir bu,
Boranın nəfəsi toxunsa əgər,
Alaca qovaqla toz ağacının
Bu şirin eşqindən qalmaz bir əsər.

Sən bir onlara bax, bir onlara bax,
Qız ona göstərdi özgə cəhəti.
Gör sidr ağacı ağcaqayına
Necə izhar edir saf məhəbbəti.

Onlar dağ havası alıb yüksəlir,
Yüksəlib boy atır, qol-budaq atır.
Torpağın qatında onların kökü
Bərk-bərk qucaqlaşıb uyuyur, yatır.

Nə boran, nə tufan, nə acı külək
Onları heç zaman ayıra bilməz.
Yanaşı dayanıb əsrlər boyu,
Onları ayırmaq cəhdi də əbəs!

Kobud bir qüvvəylə amansız tufan
Onları məhv etmək istəmiş fəqət...
Oğlan dedi qıza: qoy belə olsun
Bizim qəlbimizdə böyük məhəbbət.

Blaqa Dmitrova

QADIN OLMAQ

Qadın olmaq ağırdır,
Sevgili qollarında
Susub qalmaq, ağırdır.
Ağırdır, ana olmaq,
Sevgilidən ayrılmaq,
Körpə bala itirmək,
Atasız yetimləri
Boya-başa yetirmək,
Dul qalmaq da ağırdır...
Bunlar qadın qəlbini
Çox incidir, ağrıdır.
Təlaşsız, iztirabsız
Heç bir ağrı duymadan
Sakit, məmnun yaşamaq
Bütün ağrılardan
Daha yamandır, yaman.

Amrita Pritam

ŞEİR YAZIRAM

Şeir yazıram...
Röyalarımın dumanlı pərdəsindən
Göyün yeddi qatını
Seyr edərək mən,
Axtarıram səni,
Sənin şirin vüsalını,
Sənin əziz xəyalını.
Sərhədlər, qalalar, uca divarlar
Kəsib aramızı, ayırır bizi.
Bu acı həqiqət belə olsa da,
Ayıra bilməyir ürəyimizi.
Coşqun bir arzuyla qaynayır həyat.
Əmr edir həm yaşa, həm də ki, yaşat.
Şeir yazıram.
Ömrümün arzusu, əməli budur,
Gizlin qüssələrim, böyük imanım,
Eşqim, sevinclərim, arzum, gümanım
Şerimin səsiylə olmuşdur aşkar,
Belə vermiş tale bəlkə də qərar.
Əsrimin bu böyük sədasına mən
Şerimin səsini həmahəng etdim.
Bu böyük dünyanın bircə sirrini
Eşqimə qatmaqla kamala yetdim.
Ey nakam məhəbbət,
Qəmli könlümü
Sənsən bu dünyada bircə isidən.
Qanadlı nəğmə ol, məhəbbətimi
Cavab kimi apar uzaqlara sən,
Ey məhəbbət şamı,
Əzablarımı
Qanımla yazılan bir şerə döndər.
Zamanın nəfəsi dəysin onlara,
Açılsın nəğməmlə həzin bir səhər.
İstərəm dünyada bircə insanın

Vicdanı, namusu tapdalanmasın.
Uşaqlıqdan taxıl əkib-biçəni
Qanlı ayağıyla cavan pöhrəni
Tapdayıb keçməsin düşmən ayağı;
Nə yerdə, nə göydə hərbin alovu
Alışıb qalxmasın, əbədi sönsün
Hələ bar verməmiş məhsullu çöllər,
Qoymayın xaraba məzara dönsün.
Qanlı ölümləri, çəkişmələri
Dünyada bir insan tərif etməsin.
Alıb satılmasın incə gözəllik,
Ayaqlar altında qalıb itməsin.
Qələmin qüdrəti sınanır bu gün,
Sınanır dar gündə gücü sənətin.
Ümid nəğməsini yaradıram mən,
Ümid nəğməsini böyük millətin.

ÜMİD

Üfüqlərin qoynunda parladı dan ulduzu,
Şirin nəğməli bülbül uçdu gülü öpərək,
Göründü yaşıllıqda qönçənin gözəl üzü,
Baş qaldırdı çəməndə, təzə, nazlı bir çiçək...
Bağ səhər nəsimiylə təzələndi, tər oldu,
Gül yarpağı üstündə inci şəbnəmlər oldu...
Bir pak damla yaş axdı xumar gözdən incitək,
Parladı, buxarlandı nazla yerə düşərək.
Əydi Məcnun söyüd də öz pərişan başını,
Göylərin qarşısında eyildi yerə sarı,
Şəfəq sildi sabahın bu ilk sevinc yaşını,
Yaqut rəngə boyadı sabah göy səmaları...
Gözəl bir mələk üzü gözə dəydi oradan
İki ağ qanadıyla sanki nura büründü,
Sonra gülümsünərək xəyal kimi bircə an,
Dedi: mənəm qəlblərə işıq salan ümid, mən.
İnsanları yaşadıb, yollar açan ümid – mən.

MƏQALƏLƏR, XATİRƏLƏR, YOL QEYDLƏRİ

YADIMDA QALANLAR

Mən dünyaya gələndə Xan Xoyski bir qoçun boynuna qırmızı Gəncə kələğayısı bağlayıb bizim evə göndərmişdi. Xanın bu hərəkəti nənələrimizin qəzəbinə səbəb olmuşdu. "Allaha xoş getməz, adam da qıza qurban göndərər? Camaat nə deyər, deməzlər ki, azğınlıq eləyirlər, qıza qurban kəsirlər. Əgər onu ayrı fikirlə göndəribsə, onu da bilmək olmaz, ya qismət, bu qız gələcəkdə kimə qismət olacaq, sən yazan qoy qalsın, görək fələk nə yazır", – deyə xeyli deyinmişdilər. Müdrik nənələrin sözünü həyat özü də təsdiq etdi. Taleyin hökmü ilə tamamilə başqa həyat və gələcək cızılmışdı.

Xan Xoyskinin arvadı Şirinbəyim xanım bizə qonaq gələndə, mənim üçün ən əzablı günlər olurdu. Qapıdan girən kimi anamla öpüşər, sonra məni qucaqlayıb "gəlinimə qurban olum, çiçək gəlinim, göyçək gəlinim" deyib məni oxşardı. Mənsə onun ağuşundan qurtarıb anamın qucağına sığınar və bütün müddətdə özümü anamın ətəklərindən çıxarmazdım. Biz böyüklər, çox zaman hiss etmədən uşaq ürəyinə ağır yaralar vurur, onun körpə qəlbinin böyük iztirablarına səbəb oluruq. Şirinbəyim xanımın məhəbbətlə dediyi gəlinim sözü mənə ancaq əzab-əziyyət verirdi. Mən uşaq əqlilə başa düşürdüm ki, gəlin ayrılıq deməkdir, gəlinləri analarından ayırıb başqa yerə aparırlar.

Həm də onları bəzəndirir, musiqi səsləri, çal-çağır altında aparırlar ki, ağlamasınlar. Hələ başlarından şirin noğul, konfet tökürlər. Bir dəfə qonşu həyətdə toy var idi. Anam məni də özü ilə oraya aparmışdı, həyətdə çoxlu qızlar, gəlinlər var idi. Qarmon çalan qadın, dəf çalan da qadın idi. Onlar çalır, qadınlar isə ortalıqda oynayırdılar. Anam mənə dedi ki, gəlinə baxmaq istəyirsənsə, gəl gedək baxaq. Məclisin bir yanında gəlin oturmuşdu. Başında zərli cuna var idi. Üzü də haman cuna ilə örtülmüşdü. Gəlinə yaxınlaşdıq. Anam astaca cunanın bir ucunu qaldırıb, gəl Nuruş, gəlinə bax, dedi. Mən maraqla gəlini gözdən keçirməyə başladım. O çox bəzəkli idi. Əynində açıq mavi xaradan çərkəzi tuman, boynunda, qulaqlarında qızılı bəzəklər var idi. Gəlin zərif və ətirli idi. Ondan gülab iyi gəlirdi. Ancaq mən onun üzünə baxanda heyrətdən dondum. Gəlin həzin-həzin ağlayırdı. Gözlərinin yaşı inci kimi yanaqlarından yuvarlanıb yaxasına düşürdü. Birdənbirə mən çox pis oldum. – Ana, ana, o niyə ağlayır?

– *Anasından ayrılacaq da, ona görə ağlayır.*

Demək, gəlinləri analarından ayırırlar. Gəlin anadan ayrılmaq deməkdir. Yox, yox, Nastya xalanın ayrılığından aldığım yaralar hələ sağalmamışdı, indi, Şirinbəyim xanım məni anamdan da ayırmaq istəyir. Heç vaxt! Nə olur-olsun, mən heç vaxt anamdan ayrılmaram, heç vaxt, heç vaxt!.. Anam mənim bərkdən ağladığımı görüb: – Nə olub sənə, niyə ağlayırsan, nə oldu? Səni cücü dişlədi?

Hıçqıra-hıçqıra, – yox, – dedim, – cücü dişləməyib, sən denən bu gəlini anasından ayırmasınlar.

Anam məni qucaqlayıb:

– Dəli qız, – dedi, – bəs sən gəlin köçməyəcəksən, bir vaxt olacaq, böyüyüb sən də gəlin gedəcəksən...

Səhərlər atam işə gedəndə mən hələ yatmış olurdum. Odur ki, işdən qayıdan kimi atam əl-üzünü tərtəmiz yuyar, silər, sonra məni çiyninə mindirib lap yuxarı qaldırardı. Uşaq otağının tavanından mavi rəngli bir şar asılmışdı. Şarın üstündə qızılı rəngdə çiçəklər rəsm edilmişdi, şarın içində isə çıraq yanırdı. Mən yatağıma uzananda həmişə o şara tamaşa edir və bircə dəfə əlimi o qızıl zanbaqlara toxundurmaq arzusu ilə yanırdım. Atam hündürboylu idi. Məni çiyinlərinə qaldıranda az qalırdı əlim o şara çata. O mənim əlçatmaz arzum idi. Kim deyərdi ki, məni arzularıma qovuşmaq üçün çiyinlərində yüksəklərə qaldıran atam lap yaxın bir zamanda, məni altı yaşımda yetimliyin, atasızlığın acı möhnəti ilə üz-üzə qoyub gedəcək.

Babam boş saatlarında divanda əyləşər, qardaşlarımın hərəsini bir dizinin üstə oturdardı. Mən bu mənzərəni uzaqdan görəndə qızılquş kimi şığıyar, bir həmlədə qardaşlarımın hərəsini bir yana aşırar, özüm babamın qucağına dırmaşardım. Mənim bu hərəkətim babamı xeyli əyləndirər, ürəkdən gülüb anama müraciətlə:

– Cavahir, sənin bu qızın çox zirək qızdır, gör uşaqları necə aşırdı, – deyərdi. Anam da, Ələkbər dayı, zirək olsa yaxşıdır, indiki zəmanədə zirək olmasa baş çıxarmaq çətindir, – deyərdi. Zirəkliyim bəzən mənə baha başa gələrdi. Belə hərəkətimin əvəzində qardaşlarım macal tapıb